**"Vətənpərvərlik, yüksək milli şüur, ali məqsədlər uğrunda cəmiyyətimizin səfərbər olunmasına layiqli töhfələr vermiş Azərbaycan jurnalistləri hər zaman prinsipiallıq nümayiş etdirməli, saxta və yalan məlumatlara söykənən kampaniyaların qlobal səviyyədə vüsət aldığı bir şəraitdə Azərbaycanın dövlətçilik maraqlarını uca tutmalı, vətəndaşlarımızın dolğun və düzgün məlumat əldə etmək hüquqlarını təmin etməli, cəmiyyətimizin tərəqqisi naminə var gücləri ilə çalışmalıdırlar" - bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin Milli Mətbuat Günü münasibətilə media nümayəndələrinə ünvanladığı təbrik məktubunda deyilir. Məktubda dövlət başçısı əminliyini bildirir ki, Azərbaycan jurnalistikası əldə olunmuş uğurların inkişaf etdirilməsi, cəmiyyətimizin davamlı tərəqqisi və xalqımızın xoşbəxt gələcəyi üçün bundan sonra da öz səylərini əsirgəməyəcək.**

# Müasir çağırışlar medianın sürətli inkişafına stimul verir

## *Cəmiyyətimizin davamlı tərəqqisi və xalqımızın xoşbəxt gələcəyi üçün mətbuatın fəaliyyəti daha da gücləndirilir*



Ölkə başçısının da qeyd etdiyi kimi, XIX əsrin ikinci yarısından sonrakı dövrdə işıq üzü görən çoxsaylı nəşrlər tariximizin güzgüsü olmuş, insanların maariflənməsi, milli şüurun formalaşması, xalqımızın azadlıq amallarının gerçəkləşməsi və mənəvi dəyərlərimizin qorunmasına mühüm töhfələr vermişdir. Müstəqilliyini yenidən bərpa etmiş Azərbaycanda xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş demokratik islahatlar bütün sahələrdə olduğu kimi, milli informasiya resurslarının inkişafında da əsaslı dönüş yaratmışdır. Senzuranın ləğvi isə Azərbaycanda mətbuatın inkişafına ciddi təkan verib. Söz və mətbuat azadlığının təmin edilməsi, mütərəqqi qanunvericilik bazasının formalaşdırılması, redaksiyaların müstəqilliyinin gücləndirilməsi istiqamətində həyata keçirilən sistemli tədbirlər nəticəsində Azərbaycan mediası sürətli inkişaf mərhələsinə qədəm qoymuşdur. Ölkəmizdə insan hüquq və azadlıqlarının təməl prinsiplərini ehtiva edən fikir, söz və ifadə azadlığının, plüralizmin təmin edilməsi sahəsində mühüm addımlar atılmış, eyni zamanda kütləvi informasiya vasitələrinin inkişafı üçün vacib tədbirlər həyata keçirilmişdir.

Qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğun olaraq modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi və digər mühüm şərtləri özündə birləşdirən innovativ təkamülün yaratdığı imkanlardan Azərbaycan mediasının daha çox bəhrələnməsi, onun şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılması üçün bu sahədə əsaslı islahatlar aparılmasına zərurət yaranmışdır. Məhz bu səbəbdən Azərbaycan mediasında yeni islahatların reallaşdırılması prosesi gedir. Respublikamızda çoxlu sayda müxtəlif qəzet və jurnallar nəşr olunur, internet qəzetçilik inkişaf edir. Milli mətbuatın yubileylərinin ölkədə geniş qeyd olunması, KİV-ə birdəfəlik yardımların göstərilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri, həmçinin milli mətbuatın inkişafındakı xidmətlərinə görə jurnalistlərin fəxri adlarla təltif edilməsi haqqında sərəncamlar da mətbuata və mətbuat işçilərinə qayğının tərkib hissəsidir. Dövlət başçısının mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair sərəncamları əsasında jurnalistlər üçün iki yaşayış binası tikilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradılmışdır. Azərbaycan Prezidentinin 2021-ci il yanvarın 12-də imzaladığı "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı bu sahənin inkişafının dövlətin diqqətində olduğunu bir daha təsdiq etdi. Ölkə başçısının fərmanı mütərəqqi islahatlarla medianın inkişafında yeni mərhələnin başlanğıcı oldu. Bu sahənin dəstəklənməsinə, institusional quruculuq işlərinin davam etdirilməsinə, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılmasına imkan verdi.

Azərbaycan dövləti Prezident İlham Əliyevin şəxsində hər zaman mediaya həssas yanaşıb. Bu, istər konkret tədbirlərdə, istərsə də qanunvericilik bazasının təkmilləşməsində də özünü göstərir. Davamlılıq eyni zamanda yeni çağırışlara adekvat münasibətin ortaya qoyulmasını hədəf seçir. Yeni çağırışlar yeni tələblər müəyyənləşdirir. Azərbaycan mediası ölkəmizdə və dünyada baş verən hadisələrlə bağlı cəmiyyətin məlumatlandırılması, xalqımızın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyətini davam etdirir.

Otuz il işğal altında saxlanılan torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpa olunması ilə nəticələnmiş Vətən müharibəsi, tarixi Zəfərimiz hərb salnaməmizə qızıl hərflərlə yazılıb. Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə aparılan bu müharibə ölkə mətbuatı üçün də bir sınaq oldu. Təqdirəlayiq haldır ki, mətbuatımız bu sınaqdan uğurla, əzmlə çıxdı. Vətən müharibəsində qazanılmış şanlı Qələbəmiz regionda yeni reallıqlar yaratdı. Müasir dövrümüzdə dövlətimizin informasiya siyasəti də məhz bu reallıqlara və çağırışlara uyğunlaşdırılır. Yeniləşən cəmiyyətimizdə KİV-lərin yerinin və rolunun müəyyənləşdirilməsi, ölkə mediasının modernləşdirilməsi istiqamətində əsaslı islahatlar prosesi getdikcə genişlənməkdədir. Milli Mətbuat Günü ərəfəsində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə "Dərinləşən media islahatları: Yeni hədəflərə doğru" mövzusunda beynəlxalq media və ictimaiyyət nümayəndələrinin, xarici və yerli media ekspertlərinin iştirak etdikləri konfransın təşkili də Azərbaycan mətbuatının keçdiyi inkişaf yolu, müasir dövrdə media islahatları, əldə olunan ilkin nəticələr və təhlilə yönələn fikir mübadiləsinin aparılması məqsədi daşıyırdı. Geniş maraq və rezonans doğuran konfransda ayrı-ayrı çıxışlarda qeyd olundu ki, hazırda qloballaşan dünyada yüksək sürətlə baş verən informasiyalaşma prosesi bütün ölkələri əhatə edir. Lakin belə şərait heç də bütün ölkələr üçün bərabər şərtlər təqdim etmir. Sirr deyil ki, böyük və informasiya texnologiyaları cəhətdən daha çox inkişaf etmiş dövlətlər bu sahədə qabaqcıl mövqelərdə dayanmaqla nüfuz və təsir imkanlarını öz maraq dairələrinə daxil olan mümkün qədər geniş miqyasda tətbiq etməyə çalışırlar. Bu mənada, Vətən müharibəsindən sonra və son dövrlərdə regionumuzda baş verən digər hadisələr fonunda dünya siyasətinin gündəmində olan Azərbaycan özünün geostrateji mövqeyi, regiondakı nüfuzu və beynəlxalq təşkilatlardakı çəkisi ilə xarici aktorların maraq dairəsindədir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva media sektorunun inkişafına, xüsusilə jurnalistlərə daimi olaraq diqqət və qayğı göstərirlər. Məhz belə mühitdə müasir çağırışlarla ayaqlaşan media strukturlarının inkişafı, Azərbaycan mətbuatının qlobal mediaya inteqrasiyası, Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə çatdırılması mümkün olur.

**Mustafa KAMAL,**
**"Respublika".**